9.6. Bu Qanunun 12-ci maddəsinə uyğun olaraq yeni inzibati ərazi vahidinin yaradılması halları istisna olmaqla, ərazi vahidlərinə ad verilməsi və onların adlarının dəyişdirilməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının[2] və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə aşağıdakı sənədlər əlavə olunur:

9.6.1. ərazi vahidinə ad verilməsinə və onun adının dəyişdirilməsinə dair müvafiq icra hakimiyyəti orqanının[3] qərarı və müvafiq icra hakimiyyəti orqanının[4] yanında şura iclasının protokolu;

9.6.2. müvafiq icra hakimiyyəti orqanının[5] ayrı-ayrı inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin vəsatəti;

9.6.3. müvafiq bələdiyyə orqanının ərazi vahidinin adının dəyişdirilməsinə dair qərarı;

9.6.4. ad verilməli və ya adı dəyişdirilməli olan ərazi vahidində yaşayan, səsvermə hüququna malik olan vətəndaşların ümumi yığıncağının (yığıncaqlarının) qərarı (səsvermə hüququna malik olan, habelə yığıncaqda (yığıncaqlarda) iştirak etmiş şəxslərin sayı göstərilməklə);

9.6.5. irəli sürülən təklifin məqsədəuyğunluğunun əsaslandırılmasını, təklif olunan adın izahını, poçt idarəsi və ya dəmir yol stansiyasının olmasını və onların adlarını göstərən izahat məktubu.

9.7. İki və ya daha artıq ərazi vahidlərinin birləşməsi nəticəsində yaranmış ərazi vahidinə ad verildikdə birləşən hər bir ərazi vahidi üzrə əhalinin yığıncağı ayrılıqda keçirilir.

---

[1] – Azərbaycan Respublikası Prezidentinin "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 21 oktyabr 2000-ci il tarixli, 406 nömrəli Fərmanına uyğun olaraq "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

[2] – Bax 1.

[3] – ... "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini rayon və şəhər icra hakimiyyəti orqanları həyata keçirirlər.

[4] – Bax 3.

[5] – ... "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini rayon, şəhər, şəhərdə rayon icra hakimiyyəti başçılarının nümayəndəlikləri həyata keçirirlər.

9.8. Prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi və onların adlarının dəyişdirilməsi həmin ərazinin əhalisinin rəyi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanları[1] tərəfindən həyata keçirilir.

9.9. Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünü təşkil edən inzibati ərazi vahidlərinin adları dövlət dilində yazılmalıdır, onların dövlət dilinin normalarına uyğun olaraq yazılışı müvafiq qurum tərəfindən müəyyənləşdirilir. İnzibati ərazi vahidlərinin adları dövlət dili ilə yanaşı, xarici dillərdə də yazıla bilər. Belə olan halda inzibati ərazi vahidinin adı əvvəlcə dövlət dilində və ondan sonra xarici dildə verilməlidir.

### Maddə 10. Ərazi vahidlərinin statusunun müəyyən edilməsi və dəyişdirilməsi

10.1. Təhkim olunmuş ərazisi və daimi yaşayan əhalisi olan, habelə bu Qanunun 7-ci maddəsinə əsasən qeydə alınmış bütün ərazi vahidlərinə bu Qanunun 5-ci maddəsində göstərilmiş meyarlara müvafiq olaraq kənd, qəsəbə və ya şəhər statusu verilir.

10.2. Ərazi vahidinin statusu bu Qanunun 5-ci maddəsində müvafiq ərazi vahidi üçün müəyyən edilmiş meyarlara uyğun gəlmədikdə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı[2] və ya Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ərazi vahidinin statusunun dəyişdirilməsi üçün vəsatətlə Azərbaycan Respublikasının Milli Məclisinə müraciət etməlidirlər.

10.3. Bu Qanunun 12-ci maddəsinə uyğun olaraq şəhər inzibati ərazi vahidinin yaradılması ilə əlaqədar ərazi vahidinə, yaxud bir və ya bir neçə ərazi vahidinin müəyyən ərazisinə şəhər statusu verildiyi hallar istisna olmaqla, ərazi vahidlərinin statusunun dəyişdirilməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının[3] və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə aşağıdakı sənədlər əlavə olunur:

10.3.1. müvafiq icra hakimiyyəti orqanının[4] ərazi vahidinin statusunun dəyişdirilməsinə dair qərarı;

10.3.2. müvafiq icra hakimiyyəti orqanının[5] ayrı-ayrı inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin vəsatəti;

10.3.3. ərazi vahidinin harada yerləşməsi, onun statusunun dəyişdirilməsinin əsaslandırılması (bu Qanunun 5.3-cü maddəsində göstərilmiş meyarlara müvafiq olaraq), əhalisinin sayı və əsas məşğuliyyətə görə tərkibi barədə müvafiq icra hakimiyyəti orqanının[6] izahat məktubu;

10.3.4. statusunun müəyyən edilməsi və dəyişdirilməsi təklif olunan ərazi vahidinin və onun tabe olduğu inzibati ərazi dairəsinin müvafiq icra hakimiyyəti orqanı[7] tərəfindən təsdiq edilmiş xəritələri.

---

[1] – Azərbaycan Respublikası Prezidentinin "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 21 oktyabr 2000-ci il tarixli, 406 nömrəli Fərmanına uyğun olaraq "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini rayon və şəhər icra hakimiyyəti orqanları həyata keçirirlər.

[2] – ... "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

[3] – Bax 2.

[4] – Bax 1.

[5] – ... "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini rayon, şəhər, şəhərdə rayon icra hakimiyyəti başçılarının nümayəndəlikləri həyata keçirirlər.

[6] – Bax 1.

[7] – ... "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi həyata keçirir.

# III FƏSİL

# İNZİBATİ ƏRAZİ BÖLGÜSÜ İLƏ BAĞLI MƏSƏLƏLƏRİN HƏLL EDİLMƏSİ QAYDASI

**Maddə 11. İnzibati ərazi dairələrinin yaradılması və ləğv edilməsi**

11.1. Ərazi cəhətdən böyük və çoxsaylı əhalisi olan ərazilərdə idarəetmənin mərkəzləşdirilməsi və sadələşdirilməsi, habelə əhalinin sosial-mədəni və məişət ehtiyaclarının ödənilməsi və qanunçuluğun təmin edilməsi ilə bağlı olan qərarların icrasının səmərəli təşkil edilməsi məqsədi ilə bir-birinə nisbətən yaxın məsafədə yerləşən bir neçə kənd və ya qəsəbə inzibati ərazi dairələrinə birləşdirilə bilər.

11.2. İnzibati ərazi dairələrinin yaradılması və onların ləğv edilməsi bu Qanunun 7-ci maddəsinə uyğun olaraq ərazi vahidlərinin qeydə alınması və qeydiyyatdan çıxarılması üçün nəzərdə tutulmuş qaydada həyata keçirilir. İnzibati ərazi dairələri üçün müvafiq icra hakimiyyəti orqanı[1] tərəfindən təsdiq edilmiş xəritə tərtib olunur.

11.3. Yerli dövlət hakimiyyəti orqanlarının yerləşdiyi şəhər, qəsəbə və ya kənd müvafiq inzibati ərazi dairəsinin mərkəzi hesab olunur. İnzibati ərazi dairələri onların mərkəzinin adına uyğun olaraq adlandırılır.

11.4. İnzibati ərazi dairələrin hüdudları onların tərkibinə daxil olan ərazi vahidlərinin sərhədlərinə müvafiq olaraq müəyyən edilir və onlara uyğun olaraq dəyişdirilir.

**Maddə 11-1. Sahə inzibati ərazi dairələrinin yaradılması və ləğv edilməsi, onların adlandırılması və adlarının dəyişdirilməsi, sərhədlərinin müəyyən olunması və dəyişdirilməsi**

11-1.1. Azərbaycan Respublikasının ərazisində sahə inzibati ərazi dairələrinin yaradılması, ləğv edilməsi, onların adlandırılması və adlarının dəyişdirilməsi, sərhədlərinin müəyyən olunması və dəyişdirilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının[2] vəsatəti əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən həyata keçirilir.

11-1.2. Naxçıvan Muxtar Respublikasının ərazisində sahə inzibati ərazi dairələrinin yaradılması, ləğv edilməsi, onların adlandırılması və adlarının dəyişdirilməsi, sərhədlərinin müəyyən olunması və dəyişdirilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatəti əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən həyata keçirilir.

11-1.3. Sahə inzibati ərazi dairələrinin yaradılması, onların adlandırılması və adlarının dəyişdirilməsi, sərhədlərinin müəyyən olunması və dəyişdirilməsi barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının[3] və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə aşağıdakı sənədlər əlavə olunur:

---

[1] – Azərbaycan Respublikası Prezidentinin "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 21 oktyabr 2000-ci il tarixli, 406 nömrəli Fərmanına uyğun olaraq "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini rayon və şəhər icra hakimiyyəti orqanları həyata keçirirlər.

[2] – ... "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

[3] – Bax 2.

11-1.3.1. müvafiq icra hakimiyyəti orqanının[1] sahə inzibati ərazi dairəsinin yaradılması, onun adlandırılması və adının dəyişdirilməsi, sərhədlərinin müəyyən olunması və dəyişdirilməsinə dair qərarı;

11-1.3.2. irəli sürülən təklifin məqsədəuyğunluğunun əsaslandırılmasını, bu Qanunun 5.4-1-ci maddəsinə uyğunluğunu göstərən müvafiq icra hakimiyyəti orqanının[2] izahat məktubu;

11-1.3.3. sahə inzibati ərazi dairələrinin müvafiq icra hakimiyyəti orqanı[3] tərəfindən təsdiq edilmiş xəritəsi.

11-1.4. Sahə inzibati ərazi dairəsinin ləğvinə həmin sahə inzibati ərazi dairəsinin ərazisində yaşayan əhalinin köçməsi, bir sahə inzibati ərazi dairəsinin digər sahə inzibati ərazi dairəsi ilə birləşməsi, sahə inzibati ərazi dairəsinin ərazisi bütövlükdə şəhər, qəsəbə və ya kənd inzibati ərazi dairəsi tərkibinə daxil olan ərazi vahidinin ərazisinə birləşdirilməsi, sahə inzibati ərazi dairəsinin bütün ərazisi hüdudlarında qəsəbə inzibati ərazi dairəsinin yaradılması və ya təbii fəlakətin doğurduğu nəticələrlə əlaqədar yol verilir. Sahə inzibati ərazi dairələrinin ləğv edilməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının[4] və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə aşağıdakı sənədlər əlavə olunur:

11-1.4.1. müvafiq icra hakimiyyəti orqanının[5] sahə inzibati ərazi dairəsinin ləğv edilməsinə dair qərarı;

11-1.4.2. sahə inzibati ərazi dairəsinin ləğv edilməsinin səbəbini göstərən müvafiq icra hakimiyyəti orqanının[6] izahat məktubu.

11-1.5. Sahə inzibati ərazi dairələri birləşdikdə bu Qanunun 11-1.4-cü maddəsində göstərilmiş sənədlərə birləşmə nəticəsində yaranan sahə inzibati ərazi dairəsinin tərəfindən təsdiq edilmiş xəritəsi əlavə olunur.

11-1.6. Sahə inzibati ərazi dairəsi müvafiq şəhər inzibati ərazi vahidinin və şəhər rayonu inzibati ərazi vahidinin hüdudlarında nömrə ardıcıllığına uyğun olaraq adlandırılır.

11-1.7. Sahə inzibati ərazi dairəsinin hüdudları onların yaradıldığı rayon bölgüsü olmayan şəhər inzibati ərazi vahidinin inzibati mərkəzi olan ərazi vahidinin və şəhər rayonu inzibati ərazi vahidinin ərazisinin inzibati ərazi dairəsi ilə əhatə olunmayan hissəsinin sərhədlərinə müvafiq olaraq müəyyən edilir və onlara uyğun olaraq dəyişdirilir.

**Maddə 12. İnzibati ərazi vahidlərinin yaradılması, ləğv edilməsi, onların adlandırılması və adlarının dəyişdirilməsi, sərhədlərinin müəyyən olunması və dəyişdirilməsi**

12.1. Azərbaycan Respublikasının ərazisində inzibati ərazi vahidlərinin yaradılması, ləğv edilməsi, onların adlandırılması və adlarının dəyişdirilməsi, sərhədlərinin müəyyən olunması və dəyişdirilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti

---

[1] – Azərbaycan Respublikası Prezidentinin "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 21 oktyabr 2000-ci il tarixli, 406 nömrəli Fərmanına uyğun olaraq "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini rayon və şəhər icra hakimiyyəti orqanları həyata keçirirlər.

[2] – Bax 1.

[3] – ... "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi həyata keçirir.

[4] – ..."müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

[5] – Bax 1.

[6] – Bax 1.

orqanının[1] təqdimatı əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən həyata keçirilir.

12.2. Naxçıvan Muxtar Respublikasının ərazisində inzibati ərazi vahidlərinin yaradılması, ləğv edilməsi, onların adlandırılması və adlarının dəyişdirilməsi, sərhədlərinin müəyyən olunması və dəyişdirilməsi Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin vəsatəti əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən həyata keçirilir.

12.3. İnzibati ərazi vahidləri yaradıldıqda, ləğv edildikdə, onlar adlandırıldıqda və onların adları dəyişdirildikdə, sərhədləri müəyyən olunduqda və dəyişdirildikdə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının[2] və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə aşağıdakı sənədlər əlavə olunur:

12.3.1. irəli sürülən təkliflərin məqsədəuyğunluğu, yaradılması təklif olunan inzibati ərazi vahidinin ərazisi, tərkibində olan ərazi vahidlərinin və inzibati ərazi dairələrinin sayı, orada yaşayan əhalinin ümumi sayı və əsas məşğuliyyətə görə tərkibi, əsas sənaye, tikinti, nəqliyyat, kommunal, kənd təsərrüfatı müəssisələri, sosial-mədəni, ticarət və məişət obyektləri, habelə yaxın dəmir yol stansiyasının adı və orayadək məsafə barədə müvafiq icra hakimiyyəti orqanının[3] təqdimatı;

12.3.2. yaradılması təklif olunan inzibati ərazi vahidinin müvafiq icra hakimiyyəti orqanı[4] tərəfindən təsdiq edilmiş xəritəsi.

12.4. Bu Qanunun 2.8-ci maddəsində müəyyən edilmiş əhalinin sayına dair tələblər rayonların (şəhər rayonları istisna olmaqla) mərkəzi olan ərazi vahidlərinə şəhər statusu verilməsi hallarına şamil edilmir.

12.5. Yeni şəhər, rayon və şəhər rayonu inzibati ərazi vahidlərinin yaradılması halları istisna olmaqla, rayonların və şəhər rayonlarının adlandırılması və adlarının dəyişdirilməsi bu Qanunun 9-cu maddəsinə uyğun olaraq ərazi vahidlərinə ad verilməsi və onların adlarının dəyişdirilməsi üçün nəzərdə tutulmuş qaydada həyata keçirilir.

12.6. Yeni inzibati ərazi vahidlərinin yaradılması ilə əlaqədar digər inzibati ərazi vahidlərinin sərhədlərinin dəyişdirilməsi halları istisna olmaqla, inzibati ərazi vahidlərinin sərhədlərinin müəyyən olunması və dəyişdirilməsi bu Qanunun 8-ci maddəsinə uyğun olaraq ərazi vahidlərinin sərhədlərinin müəyyən edilməsi və dəyişdirilməsi üçün nəzərdə tutulmuş qaydada həyata keçirilir.

## IV FƏSİL

## YEKUN MÜDDƏALAR

### Maddə 13. Ərazi vahidlərinin Dövlət reyestri

13.1. Azərbaycan Respublikasının ərazi quruluşu və inzibati ərazi bölgüsünə dair qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən aparılan Ərazi vahidlərinin Dövlət reyestri (bundan sonra – Dövlət reyestri) yaradılır.

---

[1] – Azərbaycan Respublikası Prezidentinin "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 21 oktyabr 2000-ci il tarixli, 406 nömrəli Fərmanına uyğun olaraq "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

[2] – Bax 1.

[3] – ..."müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini rayon və şəhər icra hakimiyyəti orqanları həyata keçirirlər.

[4] – ... "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi həyata keçirir.

13.2. Azərbaycan Respublikasında yerləşən ərazi vahidlərinə, inzibati ərazi dairələrinə və sahə inzibati ərazi dairələrinə dair bütün məlumatlar Ərazi vahidlərinin Dövlət reyestrinə daxil edilir.

13.3. Dövlət reyestrinə daxil edilmiş bütün ərazi vahidlərinə, inzibati ərazi dairələrinə və sahə inzibati ərazi dairələrinə şəhadətnamə və müvafiq icra hakimiyyəti orqanında[1] təsdiq edilmiş xəritə verilir.

**Maddə 13-1. Ərazi vahidlərinin, inzibati ərazi dairələrinin və sahə inzibati ərazi dairələrinin xəritələrinə dair tələblər**

13-1.1. Ərazi vahidinin və ya inzibati ərazi dairəsinin və yaxud sahə inzibati ərazi dairəsinin bu Qanunun 7.4.5-ci, 7.6-cı, 8.4.5-ci, 10.3.4-cü, 11.2-ci, 11-1.3.3-cü, 11-1.5-ci, 12.3.2-ci və 13.3-cü maddələrində nəzərdə tutulan xəritələri müvafiq icra hakimiyyəti orqanı[2] tərəfindən müəyyən edilmiş qaydada aşağıdakı tələblər nəzərə alınmaqla hazırlanır:

13-1.1.1. ərazidə yerləşən yaşayış məntəqələri, onların adı, poçt şöbəsi, dəmir yolu və şose yolları, çaylar, magistral su kanalları və ya kollektorları, magistral neft və qaz kəmərləri, dəmir yol stansiyaları, dövlət mülkiyyətində olan torpaqlar və sərhədinin qonşuluqlarını müəyyənləşdirən döngə nöqtələri göstərilməklə (inzibati ərazi dairəsinə daxil şəhər, qəsəbə və kəndlərin sərhədləri ayrı-ayrılıqda müəyyənləşdirilir), onların ərazisindən asılı olaraq sahəsi 4 kv.km-ə qədər olduqda - 1:5000, 4 kv.km-dən 25 kv.km-ə qədər olduqda - 1:10000, 25 kv.km-dən 100 kv.km-ə qədər olduqda - 1:25000, 100 kv.km-dən artıq olduqda - 1:50000 miqyasda tərtib edilir;

13-1.1.2. sərhədinin qonşuluqlarını müəyyənləşdirən bütün döngə nöqtələri (sərhəd xətti boyunca əsas istinad döngə nöqtələri və onlar arasında müəyyənləşdirilmiş digər nöqtələr) arasındakı məsafələri və onların koordinatlarını əks etdirən yerquruluşu sənədlər qovluğu xəritəyə əlavə edilir.

13-1.2. Bu Qanunun 7.4.5-ci, 7.6-cı, 8.4.5-ci, 10.3.4-cü, 11.2-ci, 11-1.3.3-cü, 11-1.5-ci və 12.3.2-ci maddələrində göstərilən xəritələrin təqdim edilməsi tələbi yalnız qeydə alınan və barəsində müvafiq dəyişikliklər edilməsi təklif edilən ərazi vahidlərinə və inzibati ərazi dairələrinə, yaxud sahə inzibati ərazi dairələrinə şamil edilir. Mövcud ərazi vahidlərinin və inzibati ərazi dairələrinin, yaxud sahə inzibati ərazi dairələrinin xəritələrinin təqdim edilməsi həmin ərazi vahidləri və ya inzibati ərazi dairələri, yaxud sahə inzibati ərazi dairələri Dövlət reyestrində olmadığı hallarda tələb olunur.

**Maddə 13-2. Vətəndaşların yığıncağına (yığıncaqlarına) dair tələblər**

13.2.1. Ərazi vahidləri qeydə alındıqda, birləşdikdə, inzibati tabeliyi dəyişdirildikdə, onlara ad verildikdə və ya adları dəyişdirildikdə hər bir ərazi vahidinin ərazisində yaşayan və səsvermə hüququna malik olan vətəndaşların azı 25 faizinin müvafiq məsələyə münasibət bildirməsini təmin edən yığıncaq (yığıncaqlar) keçirilir.

---

[1] – Azərbaycan Respublikası Prezidentinin "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 21 oktyabr 2000-ci il tarixli, 406 nömrəli Fərmanına uyğun olaraq "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi həyata keçirir.

[2] – ... "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

13-2.2. Yığıncaqda (yığıncaqlarda) iştirak etmiş vətəndaşların yarısından çoxu ərazi vahidinin qeydə alınmasının, birləşməsinin, inzibati tabeliyinin dəyişdirilməsinin, ərazi vahidinə ad verilməsinin və ya onun adının dəyişdirilməsinin "lehinə" səs verdikdə müvafiq qərar qəbul edilir.

**Maddə 14. Bu Qanunun pozulmasına görə məsuliyyət**

14.1. Azərbaycan Respublikasında yerləşən ərazi vahidlərinin və inzibati ərazi dairələrinin adları və sərhədləri Azərbaycan xalqının tarixi və mədəni irsinin tərkib hissəsi olmaqla dövlət tərəfindən qorunur.

14.2. Azərbaycan Respublikasında ərazi vahidlərinin, inzibati ərazi dairələrinin və sahə inzibati ərazi dairələrinin adlarının və sərhədlərinin özbaşına dəyişdirilməsinə və ya onların adlarının təhrif edilmiş formalarından istifadə edilməsinə yol verilmir.

14.3. Ərazi quruluşu və inzibati ərazi bölgüsü məsələləri ilə əlaqədar dövlət orqanları tərəfindən təşkilati tədbirlərin həyata keçirilməsinə yalnız həmin məsələnin həll edilməsinə dair müvafiq qanunvericilik aktı qüvvəyə mindikdən sonra yol verilir.

14.4. Azərbaycan Respublikasının ərazi quruluşu və inzibati ərazi bölgüsü məsələlərinə dair tərtib və təqdim edilən sənədlərdə həqiqətə uyğun və ya dəqiq olmayan məlumatların əks etdirilməsi, habelə həmin məsələlərə dair qərarları qəbul edən dövlət orqanlarına natamam və ya bu Qanunda göstərilmiş tələblərə cavab verməyən sənədlərin təqdim edilməsi qadağandır.

14.5. Azərbaycan Respublikasının ərazi quruluşu və inzibati ərazi bölgüsü məsələlərinə dair tərtib və təqdim edilmiş sənədlərdə uyğunsuzluq və ya natamamlıq müşahidə edildikdə, habelə onlar bu Qanunda göstərilmiş tələblərə cavab vermədikdə həmin sənədlərin əsasında hər hansı qərarın qəbul edilməsinə yol verilmir.

14.6. Bu Qanunun tələblərinin pozulması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəbdir.

**Maddə 15. Qanunun qüvvəyə minməsi qaydası**

15.1. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

15.2. Bu Qanunun 2.8-ci və 5.5-ci maddələrinin müddəaları bu Qanun qüvvəyə mindikdən sonra yaradılan şəhərlərə şamil edilir. Bu Qanun qüvvəyə minənədək şəhər statusuna malik olan ərazi vahidlərinin statuslarının dəyişdirilməsinə yol verilmir.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 13 iyun 2000-ci il**
**892-IQ**

## “AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİ VAHİDLƏRİNİN DÖVLƏT REYESTRİNİN APARILMASI VƏ ONLARA ŞƏHADƏTNAMƏNİN VERİLMƏSİ HAQQINDA” ƏSASNAMƏNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **q ə r a r a  a l ı r :**

I. “Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında” Əsasnamə təsdiq edilsin (Əsasnamənin mətni əlavə olunur).

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 8 dekabr 2006-cı il**
**№ 195-IIIQ**

Azərbaycan Respublikasının
8 dekabr 2006-cı il tarixli
195-IIIQ nömrəli Qanunu ilə
TƏSDİQ EDİLMİŞDİR

# Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında

## ƏSASNAMƏ

### I. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Azərbaycan Respublikasının ərazi vahidlərinin və inzibati ərazi dairələrinin Dövlət reyestrinin (bundan sonra – Dövlət reyestri) aparılması və onlara şəhadətnamənin verilməsi qaydasını müəyyən edir.

1.2. Azərbaycan Respublikasının ərazi quruluşu və inzibati ərazi bölgüsünə dair Dövlət reyestri yaradılır. Dövlət reyestrinə mövcud və yeni yaradılan ərazi vahidləri və inzibati ərazi dairələri daxil edilir.

1.3. Ərazi vahidlərinin Dövlət reyestri – Azərbaycan Respublikasının ərazi vahidlərinə və inzibati ərazi dairələrinə dair sənədləşdirilmiş məlumatları əks etdirən dövlət informasiya ehtiyatı mənbəyidir.

1.4. Azərbaycan Respublikasının ərazi vahidlərinin və inzibati ərazi dairələrinin Dövlət reyestrinə daxil edilməsi və onlara şəhadətnamənin verilməsi Azərbaycan Respublikasının Konstitusiyasına, "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununa, bu Əsasnaməyə və digər qanunvericilik aktlarına uyğun həyata keçirilir.

### II. Dövlət reyestrinin aparılması

Azərbaycan Respublikasında mövcud və yeni yaradılan ərazi vahidlərinin və inzibati ərazi dairələrinin Dövlət reyestrinə daxil edilməsi və onlara şəhadətnamənin verilməsi Azərbaycan Respublikası Milli Məclisi Aparatının müvafiq struktur bölməsi (bundan sonra – struktur bölmə) tərəfindən aparılır.

### III. Dövlət reyestrinin prinsipləri və tərkibi

3.1. Dövlət reyestri vahiddir, vahid forma, metod və prinsiplər əsasında aparılır.

3.2. Dövlət reyestri ərazi vahidləri və inzibati ərazi dairələrinə dair məlumatlardan və sənədlər toplusundan ibarətdir.

3.3. Dövlət reyestrinə aşağıdakı məlumatlar daxil edilir:

3.3.1. ərazi vahidlərinin və inzibati ərazi dairələrinin qeydə alınması və qeydiyyatdan çıxarılması (ləğv edilməsi, birləşməsi) barədə;

3.3.2. ərazi vahidlərinə və inzibati ərazi dairələrinə, habelə onların mərkəzlərinə ad verilməsi və adlarının dəyişdirilməsi barədə;

3.3.3. ərazi vahidlərinin və inzibati ərazi dairələrinin statusu və onların statusunun dəyişdirilməsi barədə;

3.3.4. ərazi vahidlərinin və inzibati ərazi dairələrinin ərazisi və onların dəyişdirilməsi barədə.

3.4. Sənədlər toplusuna aşağıdakı sənədlər daxil edilir:

3.4.1. müvafiq icra hakimiyyəti orqanının[1] ərazi vahidlərinin və inzibati ərazi dairələrinin sayı, onların adı, mərkəzlərinin adı, statusu, ərazisi (kv.km-lə), respublikanın paytaxtından ərazi vahidinin (şəhər və ya rayonun) mərkəzinədək (Poçt şöbəsinədək), inzibati ərazi dairəsindən daxil olduğu şəhər və ya rayon mərkəzinədək (Poçt şöbəsinədək), habelə ərazi vahidinin mərkəzinə yaxın dəmir yol stansiyasının adı və orayadək məsafə (km-lə) barədə məktub və arayışları;

3.4.2. müvafiq icra hakimiyyəti orqanı[2] tərəfindən təsdiq olunmuş "İnzibati ərazi bölgüsü təsnifatı"nda (bundan sonra – təsnifat) ərazi vahidlərinə və inzibati ərazi dairələrinə mənsub kodların siyahısı;

3.4.3. "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununun 13.3-cü maddəsinə uyğun olaraq ərazi vahidinin və ya inzibati ərazi dairəsinin xəritəsi (elektron daşıyıcıda və kağız üzərində olmaqla, yerquruluşu sənədlər qovluğu ilə birlikdə);

3.4.4. ərazi vahidlərinin və ya inzibati ərazi dairələrinin qeydə alınmasına, habelə onların barəsində müvafiq dəyişikliklər edilməsinə dair müvafiq qanunvericilik aktları.

## IV. Dövlət reyestrini əks etdirən vasitələr

4.1. Dövlət reyestri aşağıdakı vasitələr üzərində aparılır:

4.1.1. kağız üzərində (Dövlət reyestri kitabı və sənədlər qovluğu);

4.1.2. elektron daşıyıcılarda (Dövlət reyestrinin elektron məlumat bazası).

4.2. Dövlət reyestrinin elektron məlumat bazasındakı məlumatlar məzmun etibarilə kağız üzərində olan məlumatlarla eyni olmalıdır. Dövlət reyestrinin elektron məlumat bazası ilə kağız üzərində məlumatlar arasında uyğunsuzluq olduqda, kağız üzərindəki yazılar əsas götürülür.

4.3. Dövlət reyestrinə daxil edilmiş ərazi vahidlərinə və ya inzibati ərazi dairələrinə dair məlumatlarla (adı və statusu, mərkəzinin adı, qeydə alınma tarixi, ərazisi (o cümlədən sərhədləri, döngə nöqtələri və onların koordinatları) həmin ərazi vahidlərinə və ya inzibati ərazi dairələrinə dair digər mənbələrdə olan məlumatlar arasında ziddiyyət olduqda Dövlət reyestrinin məlumatları əsas götürülür.

## V. Dövlət reyestrinin kağız üzərində və elektron daşıyıcılarda aparılması

5.1. Dövlət reyestrinin kağız üzərində aparılması Dövlət reyestri kitabında (bundan sonra – reyestr kitabı) və sənədlər qovluğunda eyni zamanda həyata keçirilir.

5.2. Reyestr kitabı nəzarət nüsxəsi, sənədlər qovluğu isə istifadə nüsxəsi hesab olunur.

5.3. Reyestr kitabı 45x35 sm ölçüdə, möhkəm üz səhifəsi ilə əhatələnmiş (tikilmiş) vərəqlərdən ibarət olan cildlərdən təşkil edilir, qaytanlanır və struktur bölmənin möhürü ilə təsdiq edilir.

5.4. Reyestr kitabı rayon və şəhər ərazi vahidləri, qəsəbə və kənd ərazi vahidləri və inzibati ərazi dairələri üzrə ayrılıqda aparılır.

---

[1] – Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 06 fevral 2007-ci il tarixli, 527 nömrəli Fərmanına uyğun olaraq "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini rayon və şəhər icra hakimiyyəti orqanları həyata keçirirlər.

[2] – ... "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi həyata keçirir.

5.5. Reyestr kitabının cildinin üzərində Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri verilir, müvafiq olaraq "Rayon və ya şəhər ərazi vahidlərinin Dövlət reyestri", "Qəsəbə və ya kənd ərazi vahidlərinin Dövlət reyestri", "İnzibati ərazi dairələrinin Dövlət reyestri" sözləri yazılır və həmin cildlərə daxil edilən birinci və sonuncu ərazi vahidi və ya inzibati ərazi dairəsinin sıra nömrələri əks etdirilir.

5.6. Reyestr kitabı müvafiq olaraq "Rayon və ya şəhər ərazi vahidləri haqqında məlumat" və ya "Qəsəbə və ya kənd ərazi vahidləri haqqında məlumat" və ya "İnzibati ərazi dairələri haqqında məlumat" və "Dəyişikliklər haqqında yazı" bölmələrindən ibarətdir.

5.7. Reyestr kitabının hər vərəqinin sağ yuxarı hissəsində səhifələrin nömrəsi və müvafiq reyestr kitabının fərdiləşmə kodu (RŞ/ƏV və ya QK/ƏV və ya İƏD) göstərilir.

5.8. Reyestr kitabı ayrı-ayrı cildlərdən ibarətdir.

5.9. Reyestr kitabının hər növbəti cildinə daxil edilən sıra nömrəsi əvvəlki cildə daxil edilən sonuncu sıra nömrəsini davam etdirir.

5.10. Ərazi vahidlərinə və inzibati ərazi dairələrinə dair məlumatlarda dəyişiklik edildikdə reyestr kitabında müvafiq qeydlər aparılır. Bu halda yeni qeydlərə istinad edilməlidir.

5.11. Sənədlər qovluğu hər bir ərazi vahidinin və ya inzibati ərazi dairəsinin reyest nömrəsi altında, ayrıca qovluqda tərtib edilir.

5.12. Sənədlər qovluğuna bu Əsasnamənin 3.4-cü bəndində nəzərdə tutulmuş sənədlər toplusu və şəhadətnamənin surəti tikilir.

5.13. Ərazi vahidlərinə və inzibati ərazi dairələrinə dair Dövlət reyestrində olan məlumatların hər hansı birində dəyişiklik edildikdə sənədlər qovluğuna müvafiq sənədlər daxil edilir.

5.14. Sənədlər qovluğunun əvvəlində qovluqda olan sənədlərin siyahısı və vərəqlərin sayı göstərilir. Siyahı struktur bölmənin rəhbəri tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

5.15. Dövlət reyestrinin elektron məlumat bazasının aparılması ərazi vahidlərinə və ya inzibati ərazi dairələrinə dair məlumatların məlumat bazasına yalnız təsdiq olunmuş sənədlər əsasında və operativ daxil edilməsi, habelə etibarlı müdafiə sisteminin yaradılması tələblərinə riayət olunmaqla həyata keçirilir.

## VI. Dövlət reyestrinin aparılması qaydası

6.1. Dövlət reyestrinə daxil edilən hər bir ərazi vahidinə və inzibati ərazi dairəsinə vahid və təkrarolunmaz reyestr nömrəsi verilir.

6.2. Reyestr nömrəsi - reyestr kitabının fərdiləşmə kodundan, reyestr kitabındakı sıra nömrəsindən və təsnifatda ərazi vahidi və ya inzibati ərazi dairəsinə mənsub koddan ibarətdir.

6.3. Reyestr nömrəsindəki hərflər ərazi vahidləri və ya inzibati ərazi dairələri üzrə reyestr kitabının fərdiləşmə kodunu, kəsmə xətt işarəsindən sonrakı beş rəqəm reyestr kitabındakı sıra nömrəsini, tire işarəsindən sonra gələn rəqəmlər isə təsnifatda ərazi vahidinə və ya inzibati ərazi dairəsinə mənsub kodunu əks etdirir.

6.4. Ərazi vahidləri və ya inzibati ərazi dairələri qeydiyyatdan çıxarıldıqda (ləğv edildikdə) Dövlət reyestrində müvafiq qeyd aparılır və onlara mənsub reyestr nömrəsi ləğv olunur.

6.5. Ərazi vahidləri və ya inzibati ərazi dairələri birləşdikdə Dövlət reyestrində müvafiq qeyd aparılır, birləşmiş ərazi vahidinin və ya inzibati ərazi dairəsinin reyestr nömrəsi saxlanılır və birləşmə nəticəsində ləğv edilmiş ərazi vahidinin və ya inzibati ərazi dairəsinin reyestr nömrəsi ləğv olunur.

6.6. Bir ərazi vahidi iki yerə bölündükdə Dövlət reyestrində müvafiq qeyd aparılır,

mövcud ərazi vahidinin reyestr nömrəsi saxlanılır və yeni ərazi vahidinə yeni reyestr nömrəsi verilir.

6.7. Ərazi vahidlərinin və ya inzibati ərazi dairələrinin adı və ya mərkəzinin adı dəyişdikdə Dövlət reyestrində müvafiq qeyd aparılır və onlara verilmiş reyestr nömrəsi saxlanılır.

6.8. Ərazi vahidlərinin və ya inzibati ərazi dairələrinin statusu dəyişdikdə Dövlət reyestrində müvafiq qeyd aparılır, onlara verilmiş reyestr nömrəsi ləğv olunur və yeni reyestr nömrəsi verilir.

6.9. Ərazi vahidləri və ya inzibati ərazi dairələrinin ərazisi dəyişdikdə Dövlət reyestrində müvafiq qeyd aparılır və onlara verilmiş reyestr nömrəsi saxlanılır.

6.10. Ərazi vahidləri və ya inzibati ərazi dairələrinin inzibati tabeliyi dəyişdikdə (başqa rayona və ya şəhərə verildikdə) Dövlət reyestrində müvafiq qeyd aparılır, onlara verilmiş reyestr nömrəsi ləğv olunur və yeni reyestr nömrəsi verilir.

## VII. Ərazi vahidlərinin və inzibati ərazi dairələrinin şəhadətnaməsi

7.1. Rayon və ya şəhər ərazi vahidinin şəhadətnaməsi 9327-60 dövlətlərarası standartlar üzrə A4(297x210mm) formatda, çəhrayı rəngli, "Panton" rənglər kataloqunun Violet 2563 C rənginə uyğun və xüsusi müdafiə nişanları olan kağız üzərində hazırlanır.

7.2. Qəsəbə və ya kənd ərazi vahidinin şəhadətnaməsi 9327-60 dövlətlərarası standartlar üzrə A4(297x210mm) formatda, qəhvəyi rəngli, "Panton" rənglər kataloqunun Yellow 4675 C rənginə uyğun və xüsusi müdafiə nişanları olan kağız üzərində hazırlanır.

7.3. İnzibati ərazi dairəsinin şəhadətnaməsi 9327-60 dövlətlərarası standartlar üzrə A4(297x210mm) formatda, mavi rəngli, "Panton" rənglər kataloqunun Blue 2905 C rənginə uyğun və xüsusi müdafiə nişanları olan kağız üzərində hazırlanır.

7.4. Rayon və ya şəhər ərazi vahidinin şəhadətnaməsində aşağıdakı məlumatlar əks etdirilir:

7.4.1. adı və statusu;
7.4.2. mərkəzinin adı və statusu;
7.4.3. daxil olduğu şəhər və ya rayon;
7.4.4. daxil olduğu inzibati ərazi dairəsinin adı və statusu;
7.4.5. tərkibində olan ərazi vahidlərinin sayı (şəhər, qəsəbə, kənd);
7.4.6. tərkibində olan inzibati ərazi dairələrinin sayı (şəhər, qəsəbə, kənd);
7.4.7. ərazisi (kv.km-lə);
7.4.8. qeydə alınma tarixi;
7.4.9. reyestr nömrəsi;
7.4.10. Dövlət reyestrinə daxil edilmə tarixi.

7.5. Qəsəbə və ya kənd ərazi vahidinin şəhadətnaməsində aşağıdakı məlumatlar əks etdirilir:

7.5.1. adı və statusu;
7.5.2. daxil olduğu şəhər və ya rayon;
7.5.3. daxil olduğu inzibati ərazi dairəsinin adı və statusu;
7.5.4. ərazisi (kv.km-lə);
7.5.5. qeydə alınma tarixi;
7.5.6. reyestr nömrəsi;
7.5.7. Dövlət reyestrinə daxil edilmə tarixi.

7.6. İnzibati ərazi dairəsinin şəhadətnaməsində aşağıdakı məlumatlar əks etdirilir:

7.6.1. adı və statusu;
7.6.2. mərkəzinin adı və statusu;
7.6.3. daxil olduğu şəhər və ya rayon;

7.6.4. tərkibində olan ərazi vahidlərinin sayı;
7.6.5. ərazisi (kv.km-lə);
7.6.6. qeydə alınma tarixi;
7.6.7. reyestr nömrəsi;
7.6.8. Dövlət reyestrinə daxil edilmə tarixi.

7.7. Ərazi vahidlərinin və inzibati ərazi dairəsinin şəhadətnaməsinin forması Əsasnaməyə əlavə olunur.

## VIII. Ərazi vahidlərinin və inzibati ərazi dairələrinin Dövlət reyestrinə daxil edilməsi və onlara şəhadətnamənin verilməsi

8.1. Müvafiq icra hakimiyyəti orqanı[1] mövcud ərazi vahidlərinin və inzibati ərazi dairələrinin Dövlət reyestrinə daxil edilməsi və onlara şəhadətnamənin verilməsi üçün struktur bölmənin bu barədə məktubu daxil olduğu gündən 60 gün ərzində aşağıdakı sənədləri təqdim edir:

8.1.1. müvafiq icra hakimiyyəti orqanı[2] tərəfindən təsdiq edilmiş ərazi vahidinin və ya inzibati ərazi dairəsinin elektron daşıyıcıda (disk, disket və s.) və kağız üzərində (iki nüsxədə) xəritəsi (xəritənin əlavəsi olan yerquruluşu sənədlər qovluğu ilə birlikdə);

8.1.2. müvafiq icra hakimiyyəti orqanı[3] tərəfindən təsdiq edilmiş ərazi vahidlərinə və inzibati ərazi dairələrinə verilmiş kodların siyahısı;

8.1.3. ərazi vahidi və ya inzibati ərazi dairəsi barədə bu Əsasnamənin 3.4.1-ci bəndində nəzərdə tutulmuş məktub və arayışlar.

8.2. Müvafiq icra hakimiyyəti orqanı[4] qeydə alınmış ərazi vahidlərinin və inzibati ərazi dairələrinin Dövlət reyestrinə daxil edilməsi və ya bu Əsasnamənin 6.4-cü, 6.5-ci, 6.6-cı, 6.7-ci, 6.8-ci, 6.9-cu və 6.10-cu bəndlərinə uyğun olaraq Dövlət reyestrində onlara aid müvafiq qeydlərin aparılması və şəhadətnamənin verilməsi üçün struktur bölmənin bu barədə məktubu daxil olduğu gündən 30 gün ərzində aşağıdakı sənədləri təqdim edir:

8.2.1. müvafiq icra hakimiyyəti orqanı[5] tərəfindən təsdiq edilmiş ərazi vahidinin və ya inzibati ərazi dairəsinin elektron daşıyıcıda (disk, disket və s.) və kağız üzərində (iki nüsxədə) xəritəsi (xəritənin əlavəsi olan yerquruluşu sənədlər qovluğu ilə birlikdə);

8.2.2. müvafiq icra hakimiyyəti orqanı[6] tərəfindən təsdiq edilmiş ərazi vahidlərinə və inzibati ərazi dairələrinə verilmiş kodların siyahısı;

8.2.3. ərazi vahidi və ya inzibati ərazi dairəsi barədə bu Əsasnamənin 3.4.1-ci bəndində nəzərdə tutulmuş məktub və arayışlar, habelə ərazi vahidinə və ya inzibati ərazi dairəsinə əvvəl verilmiş şəhadətnamə.

8.3. Ərazi vahidlərinin və inzibati ərazi dairələrinin şəhadətnaməsi Azərbaycan Respublikası Milli Məclisinin sədri tərəfindən imzalanır və Azərbaycan Respublikası Milli Məclisinin möhürü ilə təsdiq edilir.

---

[1] – Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 06 fevral 2007-ci il tarixli, 527 nömrəli Fərmanına uyğun olaraq "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini rayon və şəhər icra hakimiyyəti orqanları həyata keçirirlər.

[2] – ... "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi həyata keçirir.

[3] – ... "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi həyata keçirir.

[4] – Bax 1.

[5] – Bax 2.

[6] – Bax 3.

8.4. Bu Əsasnamənin 8.1.1-ci və 8.2.1-ci bəndlərinə uyğun olaraq təqdim edilən ərazi vahidinin və ya inzibati ərazi dairəsinin xəritəsi struktur bölmənin rəhbəri tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

8.5. Şəhadətnamənin əsli, o cümlədən xəritənin bir nüsxəsi müvafiq ərazi vahidinə və ya inzibati ərazi dairəsinə verilir.

8.6. Bu Əsasnamənin 5.12-ci bəndinə uyğun olaraq şəhadətnamənin surəti, o cümlədən ərazi vahidinin və ya inzibati ərazi dairəsinin elektron daşıyıcıda və kağız üzərində xəritəsinin bir nüsxəsi sənədlər qovluğuna tikilir.

8.7. Ərazi vahidlərinə və ya inzibati ərazi dairələrinə verilmiş şəhadətnamə və ya xəritə məhv olduqda, yararsız hala düşdükdə və ya itirildikdə müvafiq icra hakimiyyəti orqanının[1] müraciəti əsasında onlara yeni şəhadətnamə və ya xəritənin surəti verilir.

## IX. Qeydiyyat sənədlərinin arxivdə saxlanılması

9.1. Ərazi vahidləri və inzibati ərazi dairələri Dövlət reyestrinə daxil edildikdən sonra Bu Qanunun 5.12-ci bəndinə uyğun olaraq onların qeydə alınması üçün toplanmış sənədlər qovluğu saxlanmaq üçün Azərbaycan Respublikası Milli Məclisinin arxivinə verilir.

9.2. Sənədlər qovluğu arxivdə müvafiq ərazi vahidinin və inzibati ərazi dairəsinin reyestr nömrəsi altında saxlanılır.

9.3. Arxiv sənədlərindən struktur bölmənin rəhbərinin razılığı ilə istifadə oluna bilər.

9.4. Arxiv sənədləri müddətsiz saxlanılır.

## X. Dövlət reyestri məlumatlarının mühafizəsi

Dövlət reyestri məlumatlarının mühafizəsini Azərbaycan Respublikasının Milli Məclisi təmin edir.

## XI. Dövlət reyestrinin açıqlığı

Qanunvericiliklə nəzərdə tutulmuş səlahiyyətlərin yerinə yetirilməsi ilə əlaqədar dövlət orqanlarına və bələdiyyələrə onların müraciəti əsasında Dövlət reyestrinə daxil edilmiş ərazi vahidləri və inzibati ərazi dairələri barədə məlumat, habelə onların xəritələrinin surəti verilir.

## XII. Bu Əsasnamənin pozulmasına görə məsuliyyət

Dövlət reyestrinə daxil edilməsi üçün müvafiq icra hakimiyyəti orqanları[2] tərəfindən təqdim edilən sənədlərdə və xəritələrdə natamam və ya təhrif olunmuş məlumatların göstərilməsində və bu cür məlumatların Dövlət reyestrinə daxil edilməsində təqsirkar şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyət daşıyırlar.

---

[1] – Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 06 fevral 2007-ci il tarixli, 527 nömrəli Fərmanına uyğun olaraq "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini rayon və şəhər icra hakimiyyəti orqanları həyata keçirirlər.

[2] – ... "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini rayon və şəhər icra hakimiyyəti orqanları, Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi həyata həyata keçirirlər.

## MÜNDƏRİCAT


Azərbaycan Respublikasının xəritəsi ... 6
Azərbaycan Respublikasının Dövlət bayrağı və Dövlət gerbi ... 7
Azərbaycan Respublikası haqqında məlumat ... 8
Respublika tabeli şəhərlərin, rayonların və şəhər rayonlarının təşkil olunma tarixi ... 9
Ləğv edilmiş vilayət, rayonlar və şəhər rayonları ... 14
Şəhərlərin siyahısı ... 16
Azərbaycan Respublikasının respublika tabeli şəhərləri və rayonları haqqında məlumat ... 18

**RESPUBLİKA TABELİ ŞƏHƏRLƏR** ... 21

Bakı ... 22
Gəncə ... 26
Xankəndi ... 29
Lənkəran ... 31
Mingəçevir ... 34
Naftalan ... 36
Sumqayıt ... 38
Şəki ... 40
Şirvan ... 43
Yevlax ... 45

**RAYONLAR** ... 47

Abşeron ... 48
Ağcabədi ... 50
Ağdam ... 52
Ağdaş ... 55
Ağstafa ... 58
Ağsu ... 60
Astara ... 63
Balakən ... 66
Beyləqan ... 68
Bərdə ... 70
Biləsuvar ... 73
Cəbrayıl ... 75
Cəlilabad ... 78
Daşkəsən ... 81
Füzuli ... 83
Gədəbəy ... 86
Goranboy ... 89
Göyçay ... 92
Göygöl ... 94

Hacıqabul ... 96
Xaçmaz ... 98
Xızı ... 101
Xocalı ... 103
Xocavənd ... 105
İmişli ... 108
İsmayıllı ... 110
Kəlbəcər ... 113
Kürdəmir ... 116
Qax ... 118
Qazax ... 120
Qəbələ ... 122
Qobustan ... 125
Quba ... 127
Qubadlı ... 130
Qusar ... 133
Laçın ... 136
Lerik ... 139
Masallı ... 142
Neftçala ... 145
Oğuz ... 147
Saatlı ... 149
Sabirabad ... 151
Salyan ... 153
Samux ... 155
Siyəzən ... 157
Şabran ... 159
Şamaxı ... 161
Şəmkir ... 164
Şuşa ... 167
Tərtər ... 169
Tovuz ... 172
Ucar ... 175
Yardımlı ... 177
Zaqatala ... 180
Zəngilan ... 182
Zərdab ... 185
Naxçıvan Muxtar Respublikası haqqında məlumat ... 187
Naxçıvan Muxtar Respublikasının xəritəsi ... 188
Naxçıvan Muxtar Respublikasının respublika tabeli şəhərləri və rayonları haqqında məlumat ... 189

MUXTAR RESPUBLİKA TABELİ ŞƏHƏRLƏR ... 191

Naxçıvan ... 192

RAYONLAR ... 195

Babək ... 196
Culfa ... 198
Kəngərli ... 200
Ordubad ... 202
Sədərək ... 204
Şahbuz ... 206
Şərur ... 208
İnzibati ərazi dairələri adlarının əlifba siyahısı ... 211
Qəsəbə adlarının əlifba siyahısı ... 257
Kənd adlarının əlifba siyahısı ... 265
Ərazi vahidləri adlarının əlifba siyahısı ... 357
Dəyişdirilmiş rayon, şəhər, qəsəbə və kənd adlarının əlifba siyahısı ... 457
"Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanunu ... 465
"Azərbaycan Respublikasının ərazi vahidlərinin və inzibati ərazi dairələrinin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu ... 478

## Azərbaycan Respublikasının inzibati ərazi bölgüsü
## Məlumat toplusu

Toplu Azərbaycan Respublikasının Milli Məclis Aparatı rəhbərinin 04 dekabr 2012-ci il tarixli 933/ap nömrəli əmrinə əsasən aşağıdakı işçi qrupu tərəfindən çapa hazırlanmışdır:

İdrak Qarayev (qrupun rəhbəri), İsmayıl Cəfərov, Sevda Məmmədova, Ruslan Çovdarov, Emin İmanov, Sərxan Bədirov, Sima Məmmədova.

Texniki redaktə və dizayn tərtibatı: Elxan Zeynalov.

Yığılmağa verilib 20.09.2012. Çapa imzalanaıb 15.03.2013.
Format 60x90 $^{1}/_{8}$. Fiziki çap vərəqi 61,0.
Sifariş № 3. Tirajı 1000 nüsxə.

Kitab "N-Print" MMC-nin mətbəəsində çap edilmişdir.
D.Əliyeva 212. Tel.:(+99412) 493 57 89